

## XALİQ AZADİ

# GƏLMƏDİ

Xəyalım yol etdi, çıxdım görüşə,
Səslədim sevdiyim yarı, gəlmədi!
Qəmli bulbul oldum, dedim nəğmələr,
Yaman çəkdim ahu-zarı, gəlmədi!

Döndü cəlladıma sevdiyim rəri,
Yüklədi köksümə qəmi, kədəri!
Uzaqdan əl etdi gənclik illəri,
Qismət etdi intizarı, gəlmədi!

Xatirəm güc gəldi, ürəyim əsdi,
Təkcə mənə qaldı bulağın üstü!
Ay Allah, nə oldu, yenəmi küsdü?
Niyə pozdu bu ilqarı, gəlmədi!

Dikildi gözlərim göydə ulduza,
Çevrildim əlacsız, aciz yalqıza..
Yalvardım bu gözəl sevdiyim qıza,
Bircə kərə görəm barı, gəlmədi!

Eylədi təsəlli titrəyən yarpaq,
"Ağlama!" - söylədi şırlayan bulaq!
"İtirdin!"- qışqırdı, hər qaya, hər dağ-
Ala gözlü xoş Nigarı! Gəlmədi!

Yatmışdım, gözümü açdım, elə bil -
Qayıtdı aradan keçən otuz il!
Dedi, gecikmişik! Daha, yox o gül,
Üz tutmuşuq qışa sarı! Gəlmədi!

Yalvardım Günəşə, yalvardım Aya,
Dedim, qalım orda, olum daş, qaya!
Xaliqəm, nə deyim qismətə, paya,
Fələk yazdı bu qərarı! Gəlmədi!

# DAĞLAR İNCİYİB

Söz demə dağlara, dağlar inciyib,
Dərd çəkir ürəyi, dolub, neynəsin.
İnsantək dil açıb imdad diləyir,
Gözləri yollarda qalıb, neynəsin.

Dar gündə dərdinə dağın qalmayan,
"Can"- deyib, özünü oda salmayan,
Bizimtək vətənə qurban olmayan -
Oğulu yadına salıb neynəsin?

Arxa çevirmişik anam Təbrizə,
Göyçə yas içində - nə deyir bizə!
Murov həsrətiylə baxır Kəpəzə,
Kədərli xəyala dalıb, neynəsin?

Arzular deməklə qayıtmır Vətən!
Torpaqdan qılıncla qovular düşmən!
"Vaxt gələr!"- deyəndə utanıram mən,
İnamım yox olub, solub! Neynəsin?!

Xaliqəm, layiqik hər cür töhmətə,
Tuş etdik dağları belə möhnətə!
Yox olub günəşi, düşüb zülmətə,
Üstünü buludlar alıb, neynəsin!

# DEYİRLƏR, ŞAİR QOCALMIR

Sahib Əz-Zamanın öz qanunu var:
Şair də qocalar, söz də qocalar!
Odlu qələmiynən qurub çatdığı,
Ocaq da qocalar, köz də qocalar!

Dərib bənövşədən dəstə seçsə də,
Təmiz çeşmələrin suyun içsə də,
Şeiriynən aylardan ilə keçsə də -
Əllini ötsə də - yüzdə qocalar!

Dolanar yaylaqlı ulu dağları,
Eyləyər məkanı güllü bağları,
Zirvəylə bağlayar əhdi-ilqarı -
Zirvədə qocalar, düzdə qocalar!

Qartal baxışıyla ürəklər biçən,
Sevgi bulağından doymayan - içən,
Gözəllər dəstindən gözəli seçən,
Məhəbbət sərrafı gözdə qocalar!

İstər Divanədir, istər - Danəndə,
İllərə tabedir hamı cahanda,
Xaliq neyləsin ki, vaxtı çatanda,
Başlayar əsməyə, diz də qocalar!

## *İSTƏYİRƏM*

Nə bal istəyirəm, nə də ki, qaymaq,
O yavan çörəyi mən istəyirəm!
Quzu qabağımda çıxım dağlara,
Yolumu azdırsın çən istəyirəm!

Qayalar üstündə yıxılım, aşım,
Cırılsın şalvarım, yarılsın başım.
Nənəm ətəyilə silsin göz yaşım,
Yaşayım qayğısız, şən, istəyirəm!

Nadinc uşaq olum, düşüm cəncələ,
Rahat oturmağa hanı hövsələ.
Qaçım babamgilə, keçməyim ələ,
Dolanım cəzadan gen istəyirəm.

Qayıdım nağıltək uzaq birilə,
Eşqimi yenidən gətirim dilə!
İlk gənclik sevdamın şux gözəliylə,
Bölüm sevincimi tən, istəyirəm!

Xaliqəm, dövr etsin keçdiyim yolum,
Sevdamın köksünə yenidən dolum.
Nəvaziş içində itim, yox olum,
Yaşayım tək bircə gün istəyirəm!

## *GÖYLƏR GURULDAYA YENƏ*

Göylər guruldaya yenə,
Yağış lay-lay yerə enə.
Qaçam dərələr üstünə,
Gurlayan sellərə baxam,
Qoşulam, keçmişə axam!

Xəyallarım uzaq qaça,
Çıxa asimana, uça.
Qartal ola, qanad aça,
Qıy vura, səsləyə məni,
"Gəl!" - deyib gözləyə məni!

Ana məktəb, oldum uzaq,
Ömür keçdi - necə yozaq?
Niyə məni saldın qıraq?
Qoy, qayıdımuşaqolum,
Təzələnsin sənə yolum!

Gözəl məktəb qəmli, nəsə,
Deyən, azdı gələn dərsə!
Örgənmişdin küyə - səsə,
O dövrün arxada qalıb,
Başın üstün bulud alıb!

Tarix töhfəm, a Şiş Qaya,
Heç olmasa, sən çat haya!
Mənə söyləmirsən, niyə,
Bəsdir qərib oldun! Qayıt!
Saralıban-soldun, qayıt!

Başı qarlı Keçəl dağı,
Köksündə İsa bulağı,
Unutmaram keçən çağı.
Ağrımasın o ağ başın,
Tökülməsin gözdə yaşın.

Qız-gəlinli buz bulaqlar,
Sevən, sizdə tutur ilqar.
Yaddaşımın Turş Suyu var -
Gözəl suyun qoy bol olsun,
Şöhrətinlə dünya dolsun!

Pıçıldayır, deyir zaman:
Xaliq, görüşərsən! İnan!
Həsrətin çəkirəm yaman,
Gözəl obam, qanımdasan,
Ürəyimdə, canımdasan!

## *ARXADAN GƏLƏN SƏS*

Yenə xəyallardayam,
Fikir məni aparır.
Arxadan bir səs gəlir,
Keçmişlərə çağırır!

Bir səs gəlir arxadan,
Mehriban Ana səsi!
"Lay-Lay" - deyir həzindən-
Şirin yatsın körpəsi!

Bir səs də eşidirəm,
Körpə uşaq gülüşü!
Qayğısız bir dünyanın
İlk addımı, yerişi!

Bir səs gəlir arxadan,
Məhəbbətin səsidir!
İsmətli bir sevginin,
Eşqin ilk müjdəsidir!

Bu arxadan gələn səs,
Keçmişin nəfəsidir!
İtirdiyim gəncliyin
Uzaqlaşan səsidir!

Bir səs gəlir arxadan,
Nələr söyləyir mənə?
Təlaş dolu "əlvida" -
Deyir hər keçən günə!

Bu gələn səssə, yəqin,
Hicranımın səsidir.
Ürəkdəki nisgilin -
Bəlkə, qəm kölgəsidir?

Bir səs gəlir arxadan,
Tələsmə, dayan, - deyir.
Xəyallar dəryasında -
Yatmısan, oyan, - deyir.

Mən nə deyə bilərəm,
Arxadan gələn səsə?
Vallah, mən tələsmirəm,
Günlərim düşüb bəhsə!

## BİR AZ

Şair qardaş, aç sinəni,
Gəl, Şınıxdan söylə, bir az!
Sal yolunu Keçəl dağa,
Ceyran-cüyür teylə, bir az!

Meşələri, düzü, dağı,
Gözəl insanlar oylağı.
Binəli yaşıl yaylağı,
Durub tərif eylə bir az!

En Turş Suya, bir qurtum iç,
Qayıt, köhnə dövrana keç.
Bulaq üstə bir gözəl seç,
Söz-söhbətə əylə, bir az!

Kəs yolunu, eylə söhbət,
Ürəyə dolsun məhəbbət!
Şirin - şəkər sözlər işlət,
Olsun səndə hiylə, bir az!

Xaliq, söylə, o dağlartək,
Varmı yetişdirən mələk?
Qara telə bir sığal çək,
Ürək dolu iylə bir az!

## GÖZƏLİN

Ümid verib oda salmaq,
Adətidir bu gözəlin.
İşvəsiylə naz etməyi,
Sərvətidir bu gözəlin.

Qaşları dünya naxışı,
Gözəllik ona yaraşır.
Ahutək sirli baxışı,
Söhbətidir bu gözəlin.

Qıyqacı nəzər salmağı,
Sehirli ulduz olmağı,
Xaliqin canın almağı,
Qüdrətidir bu gözəlin.

## GÖZƏL

Külli - aləm "şükür" deyir,
Səni yaradana, gözəl.
Xoş qədəmin dəysə hara,
Dönür Gülüstana, gözəl.
Baxışın cəllad olub,
Qəsd eyləyir cana, gözəl.
Ağ buxaq, alma yanaq,
Layiq şöhrət-şana, gözəl.
Çəkmə məni çox sınağa,
Dözməm imtahana, gözəl.

Ayrılıq yetən zamannan,
Huşum gedib, çaş olmuşam.
Həsrətindən odlanıram,
Alov asir daş olmuşam.
Nə gecəm var, nə gündüzüm,
Zülümə yoldaş olmuşam.
Vüsalına yetmək üçün,
Yollarda çaş-baş olmuşam.
İnsafa gəl, bir ümid ver,
Salma məni qana, gözəl.

Keçən günü yad edirəm
Özümü xoşbəxt sanıram.
Qoynun eşqimin cənnəti,
Sevgi odunda yanıram.
Cahanda yox bərabərin,
Başqa varlığı danıram.
Sənsiz bir günüm il olur,
Dözəmmirəm, odlanıram.
Xaliq dərdindən xəstədir,
Gəl, yetir dərmana, gözəl.